**UOT: 334.78, 338.43**

# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI VƏ DÖVLƏT-ÖZƏL ƏMƏKDAŞLIĞI

**Teymur Muxtar oğlu Nağıbəyli**

***Aqrar Tədqiqatlar Mərkəzinin doktorantı***

***e-mail: teymur.nagi@hotmail.com***

***Xülasə***

*Müasir dövrdə kənd təsərrüfatı iqtisadiyyatın real sektorunun vacib tərkib elementi kimi mühüm funksiyalar yerinə yetirir. Bu sahə əhalinin ərzağa və sənayenin xammala olan ehtiyacının ödənilməsinin, bu istiqamətlərdə yerli istehsalın xüsusi çəkisinin artırılmasının başlıca amili kimi çıxış edir. Kənd təsərrüfatı sahəsi ölkənin iqtisadi tərəqqisində müsbət impuls yaratmaqdan əlavə sosial problemlərin həll edilməsi yönündə, xüsusilə məşğulluq səviyyəsinin artırılmasında da öz töhfələrini verir. Bu istiqamətlərdə irəliləyişlər dövlət-özəl əməkdaşlığının inkişafı ilə bağlıdır.*

***Açar sözlər:*** *kənd təsərrüfatı, inkişaf, islahatlar, dövlət proqramı, dövlət-özəl əməkdaşlığı.*

## Giriş

Qloballaşma prosesinin dərinləşməsi ilə birgə bütün dövlətlərin aqrar siyasətinin önündə dayanan ən mühüm vəzifələrdən biri məhz ərzaq təhlükəsizliyinin təmin edilməsi və kənd təsərrüfatı məhsullarına olan tələbatın üstün olaraq yerli istehsal hesabına ödənilməsi hesab olunur.

Keçən əsrin son on illiyində ölkəmizdə iqtisadiyyatın hər bir sahəsində olduğu kimi kənd təsərrüfatında da bazar iqtisadiyyatına keçidlə bağlı islahatlar uğurla aparılmışdır. Məlum olduğu kimi, kənd təsərrüfatında azad iqtisadi proseslərin bərqərar olmasının ən vacib meyarını sahibkarlığın inkişafı təşkil edir. Respublikamızda kənd təsərrüfatı sektorunda sahibkarlığın tərəqqisinə yönəldilmiş aqrar islahatlar ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkə parlamentində qəbul olunmuş “Aqrar islahatın əsasları haqqında”, “Sovxoz və kolxozların islahatı haqqında” və “Torpaq islahatı haqqında” Azərbaycan Respublikası qanunları əsasında aparılmışdır. Kənd təsərrüfatında həyata keçirilən islahatlar qısa zaman dilimində sahənin tənəzzül mövqelərini ortadan qaldırmış, kənddə çoxukladlı iqtisadiyyatın formalaşmasına əlverişli şəraitin yaranmasına səbəb olmuşdur.

**Kənd təsərrüfatına dövlət dəstəyi**

Ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra aqrar sahədə aparılan islahatlar əsasən 3 yönümü əhatə etmişdir:

- *Aqrar sahədə yeni mülkiyyət formalarının təşəkkülü;*
- *Aqrar sektorda fərqli təşkilati-hüquqi formalı təsərrüfat tiplərinin formalaşdırılması;*
- *Aqrar sektorda dövlət köməyi sisteminin yaradılması.*

Kənd təsərrüfatı sahibkarlarının istehsal imkanlarının aşağı olması onlara dövlət tərəfindən xüsusi güzəştlərin tətbiqini vacib amilə çevirmişdir. Bu güzəştlər əhatəsində ən diqqət çəkən proseslərdən biri də kənd təsərrüfatında fəaliyyət göstərən təsərrüfat subyektlərinə vergi güzəştlərinin həyata keçirilməsidir. Elə bununla əlaqədar 1999-cu ildə ölkə prezidentinin müvafiq fərmanına əsasən, kənd təsərrüfatında istehsal subyektləri torpaq vergisi istisna olmaqla digər bütün vergilərdən 5 il ərzində azad edilmiş və hazırki dövrə qədər bu güzəştlər davamlı xarakter almışıdır.

Aqrar sahədə sahibkarlıq prosesinin inkişafı dövlət proqramları çərçivəsində stimullaşdırılmışdır. Bu proqramlara uyğun olaraq sahibkarlığın tərəqqisi və tənzimlənməsinin inkişaf etdirilməsi məqsədilə bir sıra vacib işlər görülmüşdür.

Regionların sosial-iqtisadi inkişafı istiqamətində dövlət proqramları həyata keçirilmşdir. Həmin proqramlar regionlarda iqtisadi prosesin stimullaşdırılmasına yol açacaq zəruri məsələləri özündə cəmləmişdir.

Dövlət proqramında əkinçiliyin inkişafı yönündə də əsaslı dəyişikliklər nəzərdə tutulmuşdur. 1970-80-ci illərdə taxil, üzüm, bostan məhsulları, tütün əkinçilikdə daha artıq paya malik idisə indi, istehsalın quruluşunda meyvə, tərəvəz məhsulları, yağlı bitkilər daha yüksək xüsusi çəkiyə malikdir Bu, müsbət irəliləyişlər sayəsində son 5 ildə əvvəllər 100 faiz xarici ölkələrdən idxal edilən şəkərin yerli istehsal hesabına böyük hissəsini reallaşdırmaq mümkün olub. İndi ölkədə şəkər istehsalına görə imkanlar yüksəkdir. Həmin məhsul üzrə ixtisaslaşmış bir neçə rayonda şəkər çuğundurunun əkilməsinə mühüm yer verilir. Ölkəmizdə kənd təsərrüfatı istehsalçılarına ən mühüm dəstəklərdən biri də sahə üzrə edilən vergi güzəştləridir. Qeyd olunduğu kimi, kənd təsərrüfatı sahibkarları 1999-cu ildən etibarən torpaq vergisi çıxılmaqla, qalan vergilərdən azad edilmişdir. Bundan əlavə kənd təsərrüfatı istehsalına görə vacib əhəmiyyət daşıyan maddi-texniki resursların böyük hissəsinin respublikamızda istehsalının olmamasını nəzərə alaraq, onların respublikaya idxalını asan yolla etmək və bu sahə ilə məşğul olan sahibkarların tələbatlarını ödəmək üçün ölkəyə daxil edilən kənd təsərrüfatı maşın və texnikaları, onların ehtiyat hissələri, fərqli dərman preparatları, gübrə və zəhərli kimyəvi maddələr gömrük vergisindən və idxal zamanı əlavə dəyər vergisindən azad edilmişdir.

**Dövlət-özəl əməkdaşlığının əsas istiqamətləri**

Yeni şəraitdə kənd təsərrüfatında dövlət-özəl əməkdaşlığının genişləndirilməsi zərurəti ortaya çıxır. Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Xidmətlər Agentliyi, Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Bitki Mühafizə Vasitələri, Gübrə İstehsalçıları və İdxalatçıları Assosiasiyası İctimai Birliyi arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanmışdır ki, bu da dövlət-özəl əməkdaşlığını özündə təzahür etdirir. Bu sənədin təsdiqlənməsi kənd təsərrüfatı fəaliyyətində dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi istiqamətində mühüm bir addımdır. Anlaşma memorandumu ölkədə məhsul istehsalının yüksəldilməsi üçün istehsal vasitələrindən

səmərəli istifadə edilməsini, əkin sektorlarında fitosanitar tədbirlərin həyata keçirilməsi və xidmətlər göstərilməsinin koordinasiya edilməsini, həmçinin bitki sağlamlığı və qorunması, məhsuldarlığın yüksəldilməsinin həyata keçirilməsinə dair ixtisaslı kadrların hazırlanmasını özündə əks etdirir. Sənədi imzalayan tərəflər ölkə daxilində dayanıqlı ekoloji mühitin və fitosanitar mühitin qorunması, ziyanverici, xəstəlik və alaq otlarına qarşı əlverişli mübarizə tədbirlərinin, proseslərinin aparılması mexanizminin modern metod və texnologiyalar işlətməklə inkişaf etdirilməsi ilə bağlı əməkdaşlıq edəcəklər. Həmçinin sənəddə əsasən bitki sağlamlığının yeni üsullarla izlənməsi, fitosanitar mühitin mühafizəsi və ekoloji cəhətdən əlverişli mübarizə sistemlərinin həyata keçirilməsi yönündə fitosanitar mütəxəssislərin maarifləndirilməsi, ölkənin bölgələrində istehsalçılara bitki mühafizəsi prosesində modern texnoloji fəaliyyətlər haqqında birgə maarifləndirici təlimlərin təşkili və başqa yönlərə dair əməkdaşlıq nəzərdə tutulur [4].

Eyni zamanda, kənd təsərrüfatı istehsalçılarına güzəştli şərtlərlə kreditlərin verilməsi istiqamətində Aqrar Kredit və İnkişaf Agentliyinin bank və kredit təşkilatları ilə əməkdaşlığı dövlət-özəl əməkdaşlığının ölkəmizdə uğurlu tətbiqini əks etdirir. Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitləri hesabına müvəkkil kredit təşkilatları vasitəsilə 1895 fermerə 18 milyon manatadək mikrokredit verilmişdir [6].

İnkişaf etmiş ölkələrin təcrübəsində kənd təsərrüfatı əmtəə istehsalçılarının maddi-texniki vasitələrə olan tələbatlarının ödənilməsi üçün dövlət vasitəsilə vacib subsidiyalaşdırma fəaliyyət yerinə yetirilir. Həmin subsidiyalaşdırma prosesində, bir qayda olaraq onlara vergi prosesində standart güzəştlərin edilməsi və elektrik enerjisindən istifadə zamanı güzəştli tariflərin həyata keçirilməsi mühüm yer tutur. Bundan başqa, ərzaq bazarında ehtiyaclara müvafiq olaraq kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması və restrukturizasiya fəaliyyətinin yerinə yetirilməsinə dövlət tərəfindən yardımlar da edilir.

Təhlillər göstərir ki, rəqabətqabiliyyətliyin yüksəldilməsi yönündə kooperasiya əlaqələrinin və həmçinin emal sənayesi sahəsinə inteqrasiyanın sürətləndirilməsi, ticarət və bank sektorları ilə birgə fəaliyyət strukturlarının formalaşdırılması önəmli rola malikdir. İnkişaf etmiş ölkələrin praktikasında heyvandarlıq komplekslərinin, o cümlədən quşçuluq fabriklərinin istehsal qurumlarının strukturlarında yaradılması, kənd təsərrüfatı əmtəə istehsalçılarının mənfəətlərinin gözlənilməsində və onların satış təchizat məsələlərinin həllində əhəmiyyətli rol oynadığını göstərir. Həmin qəbildən olan quruluşlara kənd təsərrüfatı xammalının istehsalçıları ilə, emal qurumları əhatəsində birgə kommersiya qurumlarının meydana gəldiyini aid etmək olar ki, bununla da fərqli məhsul növləri üzrə holdinqlərin fəaliyyət göstərdiyi nəticəsinə gəlmək olar.

**Nəticə**

Ümumilikdə inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, kənd təsərrüfatına investisiyaların mühüm qaynağı əslində dövlət büdcəsi hesabına reallaşdırılan məqsədli proqramlardır. Həmin proqramlarda iştirak bir qayda olaraq müsabiqə əsasında həyata keçirilir. Proqramlar üzrə investisiya layihələrinin xeyli hissəsi infrastruktur sisteminin təkmilləşdirilməsinə, torpaqların münbitliyinin mühafizəsinə, əmtəə istehsalçıları üçün bu və qalan istehsal infrastrukturu, məhsul anbarlarının tikilməsinə yönləndirilir.

Dünya iqtisadiyyatına inteqrasiyanın sürətləndiyi müasir iqtisadi şəraitdə kənd təsərrüfatında sahibkarlıq prosesinin ölkə iqtisadiyyatına verdiyi töhfənin artırılması üçün əlverişli iqtisadi mühit yaratmalıdır ki, bu isə bilavasitə müvafiq hüquqi bazanın olmasından asılıdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı -2009.
2. Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı -2004.
3. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı -2009.
4. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
5. "Kəndli (fermer) təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunu.
6. Aqrar Kredit və İnkişaf Agentliyi. http://akia.gov.az/az/news/92.

T.M. Nagibeyli
*Ph.D. student* of the Agricultural Economics Research Center

**Development of agricultural economy and state-private partnership in Azerbaijan**

*Summary*

*At the present stage, agriculture performs special functions as an important component of the real sector of the economy. This industry is a key factor in meeting the needs of the population for food and agricultural raw materials, increasing the share of local production in these areas. In addition to creating a positive impetus for the country's economic development, the agricultural sector also contributes to solving social problems, especially in terms of increasing employment. Progress in these areas is associated with the development of public-private partnerships.*

***Keywords:*** *agriculture, development, reforms, state program, public-private partnership.*

Т.М. Нагибейли
Докторант Центра аграрных исследований

**Развитие сельского хозяйства и государственно-частное партнерство в Азербайджане**

*Резюме*

*На современном этапе сельское хозяйство выполняет особые функции как важная составляющая реального сектора экономики. Данный отрасл является ключевым фактором в удовлетворении потребностей населения в продуктах питания и сельскохозяйственном сырье, увеличивая долю местного производства в этих областях. Помимо создания положительного импульса для экономического развития страны, аграрный сектор также дает свой вклад в решению социальных проблем, особенно по увеличению занятости. Прогресс в этих областях связан с развитием государственно-частного партнерства.*

***Ключевые слова:*** *сельское хозяйство, развитие, реформы, государственная программа, государственно-частное партнерство.*